# Heydər Əliyev ideyaları yaşayır və yaşayacaqdır

## Təhsil şöbəsində

Rayonun təhsil işçiləri ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar onun abidəsi önünə gül-çiçək dəstləri qoymuşlar. Sonra təhsil şöbəsində rəsmi hissə olmuşdur.

Tədbiri giriş sözü ilə təhsil şöbəsinin müdiri Oqtay Hacıyev açaraq ümummilli liderin siyasi fəaliyyəti, dövlət quruculuğu sahəsindəki xidmətləri haqqında məruzə etmişdir. Məruzə ətrafındakı çıxışlardan sonra, şəhər 3 saylı tam orta məktəbin şagirdləri tərəfindən Heydər Əliyevə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir. Sonda tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinə gələrək dahi şəxsiyyətin ömür yolunu əks etdirən ekspozisiyaya baxmışlar.

❁ ❁ ❁

## Mərkəzi xəstəxanada

Rayon mərkəzi xəstəxanasının kollektivi ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Qəbələ şəhərinin mərkəzində ulu öndərin adını daşıyan parka gələrək burada dahi şəxsiyyətin abidəsi önünə tər gül dəstələri düzmüş, və əziz xatirəsini yad etmişdir.

Daha sonra mərkəzi xəstəxanada yığıncaq keçirilmiş, Heydər Əliyevin həyat və fəaliyyəti haqqında çıxışlar olmuş, bu dahi şəxsiyyətin Azərbaycanın müstəqilliyi və dövlət quruculuğu ilə bağlı həyata keçirdiyi siyasi fəaliyyətinin unudulmayacağı qeyd olunmuşdur.

❁ ❁ ❁

## Rayon ağsaqqallar şurasında

Rayon ağsaqqallar şurasının Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar keçirilən tədbirini giriş sözü ilə şuranın sədri Nazim Mustafayev açmışdır.

Sonra söz ulu öndərin həyat və fəaliyyəti ilə əlaqədar məruzə etmək üçün ziyalı ağsaqqal Fərman Əzizliyə verilmişdir. O, ümummilli lider Heydər Əliyevin tərcümeyi-halı, təhsil illəri, sonrakı əmək fəaliyyəti barədə, xüsusilə Azərbaycanda müstəqilliyin qazanılması, onun qorunub saxlanılması üçün həyata keçirdiyi tədbirlərdən danışmışdır.

Ağsaqqallardan Şirin Şirinov, Nurəddin Tağızadə, Qurban Ziyadov, Nurəddin Şirinov Müsavər Məmmədov, Vaqif Əzimov, Tofiq Eyyubov və başqaları çıxış edərək Heydər Əliyevlə görüşlərini, onun çıxışlarını, bəzi hallarda söhbətlərini yaxından dinlədiklərini söylədilər və bu gün gənclərimizin Heydər Əliyev siyasətini yaxından öyrənməsinə ehtiyac olduğunu vurğuladılar. Heydər Əliyev XX əsrin böyük şəxsiyyətlərindən biri olmaqla Azərbaycan xalqının qəlbində əbədiyaşar bir siyasətçidir.

Çıxış edənlər qeyd etdilər ki, Heydər Əliyevin varisi ölkə Prezidenti İlham Əliyev bu dahi şəxsiyyətin özündən sonra miras qoyduğu siyasi kursu uğurla həyata keçirir. Biz bundan sonra da bu kursun həyata keçirilməsində cənab Prezidentə dəstək verməliyik.

❁ ❁ ❁

## Gənclər və idman idarəsində

Qəbələ rayon Gənclər və İdman idarəsi "Qəbələ" İdman Klubu ilə birlikdə "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü"nə həsr edilmiş yeniyetmələr arasında cüdo idman növü üzrə rayon açıq turniri keçirmişlər. Turnir Qəbələ Olimpiya İdman Kompleksində baş tutmuş və respublikanın 20-dək şəhər və rayonundan 21 komanda üzrə 242 idmançı iştirak etmişdir.

Yarışın keçirilməsində əsas məqsəd ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanımızın inkişafı yolunda gördüyü işləri, hər bir sahədə olduğu kimi idman sahəsində apardığı islahatları ictimaiyyətə çatdırmaqdan, həmçinin cüdo idman növünün respublikada inkişafına nail olmaq, uşaq və yeniyetmə idmançılarda yarış təcrübəsini və ustalığı inkişaf etdirməkdən, cüdo üzrə rayon yığma komandasının tərkibini müəyyən etməkdən ibarət idi.

Tədbirin açılış mərasimində Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev, rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və "Qəbələ" İdman Kulubunun vitse prezidenti Fariz Nəcəfov iştirak etmiş və idmançılara uğurlar arzulamışlar.

Açılış mərasimindən sona meydan birincilik uğrunda mübarizəyə başlayan 2002—2003 və 2004—2005-ci il təvəllüdlü cüdoçuların ixtiyarına verildi. Yarışda 2002—2003-cü il təvəllüdlü oğlanlar 24 kq, 27, 30, 34, 38, 42, 46, 50, +50 kiloqram çəki dərəcələri və 2004—2005-ci il təvəllüdlülər isə 18, 21, 24, 27, 30q, 34q, 38, 42, +42 kiloqram çəki dərəcələri üzrə mübarizə aparmışlar. Yarış mövcud beynəlxalq qaydalara əsasən keçirilmişdir.

Cüdo üzrə Qəbələ rayon açıq turnirinin yekununda medal sayına görə komanda hesabında Qəbələ rayon komandası I yerə, Bakı şəhər komandası II yerə və Sumqayıt şəhər komandası III yerə layiq görülmüşlər. Hər çəki üzrə qalib gəlmiş (I, II, III yerlər) idmançılara diplom və medallar, komandalara isə kuboklar təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Qəbələlilər faşizm üzərində qələbəni unutmur

## Müharibə veteranlarının keçdiyi həyat yolu polis işçilərinə nümunədir

Faşizm üzərində qələbənin 70 illik yubiley günü ilə əlaqədar rayon polis şöbəsində geniş tədbir keçirildi. Polis işçilərinin toplantısını giriş sözü ilə



açan şöbə rəisinin köməkçisi, polis mayoru Alεddin Nuhov qeyd etdi ki, 1941-1945-ci illərdə Azərbaycan xalqının igid oğullarının keçdiyi həyat yolu, onların təcrübəsi bu gün polis orqanlarımızın əməkdaşlarına da şəxsi nümunədir. Hazırki yığıncağa toplaşmağımızda məqsəd İkinci Dünya müharibəsi zamanı sanki Yer Kürəsinin üçdəbir ölkələrini işğal etmiş alman faşizminin sovetlər ittifaqına qəflətən hücumu zamanı böyük Qələbəyə aparan döyüş yollarından söhbət açmaq, eyni zamanda sovet xalqları ilə birlikdə Azərbaycanın qəhrəman oğullarının göstərdikləri şücaətlərə nəzər salmaqdır.

A. Nuhov sonra məruzə üçün sözü rayon təhsil şöbəsinin məsul işçisi Rasim Bayramova vermişdir.

Rasim Bayramov məruzəsində müharibədə qalib gəlmək üçün alman faşizminin qarşıya qoyduğu məqsəd və vəzifələrdən, Adolf Hitlerin keçmiş sovetlər ittifaqına qarşı "İldırım sürətli" müharibə planlarından, bu müharibənin ölkəyə vurduğu ziyanlardan, faşizmin qarşısını almaq üçün sovet rəhbərliyinin həyata keçirdiyi tədbirlərdən, qələbənin səbəblərindən söhbət açmışdır. R. Bayramov bu müharibə illərində qələbə üçün Azərbaycan xalqının fədakar əməyi, onun qəhrəman oğullarının rəşadətli döyüş yolları üzərində ətraflı dayanmışdır.

Tədbirdə müharibədə vətənin azadlığı uğrunda canlarından keçmiş oğullarımızın, habelə sonradan vəfat etmiş və bu günə qədər sağ qalmış veteranlarımızın mənalı həyat yolunun, zəngin təcrübəsinin yetişməkdə olan nəslə, həmçinin polis orqanlarının əməkdaşlarına örnək olduğu, vətənə sonsuz məhəbbət, dövlətə sədaqət andına çevrildiyi xüsusi olaraq vurğulanmışdır.

Tədbirdə müharibə və polis veteranı Nürəddin Tağızadə çıxış edərək cəbhə xatirələrinin ən mühüm anlarından, eyni zamanda sonraki həyat təcrübəsindən, işlədiyi vəzifədə vətənə, xalqa sədaqətlə xidmət etməsindən danışmışdır.

Yığıncağı A. Nuhov yekunlaşdırmışdır.

**Nadir ATAKİŞİYEV.**

## Yaddaşlarda qalan böyük Qələbə

Qəbələ şəhər 3 saylı tam orta məktəbində 9 may Qələbə gününün 70 illiyi münasibəti ilə vətənpərvərlik ruhunda tədbir keçirilmişdir. Tədbirdə Rayon təhsil şöbəsinin nümayəndələri, məktəb rəhbərliyi, müəllim-şagird kollektivi və dəvət olunan müharibə veteranları iştirak edirdi.

Tədbirin açılışına məktəbin direktoru Ədilə Əliyeva şagirdlərə bu günün anlam və mahiyyətini əks etdirən nitqi ilə başlamışdır. Tədbirdə böyük Qələbənin 70 illiyi ilə əlaqədar məruzə və çıxışlar olmuşdur. 11-ci sinif şagirdlərinin müharibədə iştirak edən Azərbaycanın oğul və qızlarından və arxa cəbhədə fəaliyyət göstərən əhalimizdən bəhs edən çıxışları diqqətəlayiq idi.

Qonaq qismində çıxış edən müharibə veteranları cəbhə xatirələrini danışdılar. Tədbir müddətində Böyük Vətən müharibəsinin ağır və çətin anlarını əks etdirən videoçarx nümayiş etdirildi.

Sonda aşağı sinif şagirdlərinin hazırladığı vətənpərvərlik ruhlu səhnəcik hamının marağına səbəb oldu.

**Səbinə MİRZƏMMƏDLİ,**
**məktəbin dil-ədəbiyyat müəllimi.**

# Muzeydə tədbir

Rayon tarix-diyarşünaslıq muzeyində faşizm üzərində qələbənin 70 illiyi münasibətilə hazırlanan geniş sərgi hər kəsin diqqət və marağını çəkdi. Çünki həmin tarixi hadisənin iştirakçıları da sərgiyə fəxr və qürurla tamaşa edirdilər. Hal-hazırda rayonumuzda həmin tarixi hadisənin iştirakçıları yaşayırlar. Onlar tədbirdə həmin günlərin ağır, eyni zamanda fəxarətli anlarından söhbət açdılar.

❁ ❁ ❁

1941—1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illik yubileyi münasibətilə rayon ağsaqqallar şurasında və digər idarə-müəssisələrdə də geniş tədbirlər keçirilmiş, həlak olan müharibə veteranlarının əziz xatirəsi yad olunmuşdur.